**Akhundova K.A.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.61.33-43**
**UOT 347.12**

## Civil-law protection: definition, types and objects

**Abstract**: No society can live without certain rules and behavior. At the same time, no member of any community, individual or other legal, religious, moral or other law should be allowed. are not insured against any breach or probability of infringing the rights and interests guaranteed by the grounds. This is how society exists and lives like this and will continue to do so. However, according to the development level of civilization, there have been changes in the contents of violated rights and interests, measures taken to prevent their violation, and mechanisms for the protection and restoration of violated rights. An important burden in this area lies with the relevant legislation and its implementing agencies, including the courts.

Courts that settle a civil legal dispute generally provide the protection of that right when the plaintiff determines that he has a subjective right. In this case, the interest of the appellant is in the restoration of his violated or disputed rights. The subjective rights of individuals and legal entities are expressed in the legal acts (objective law) and become the authority in legal relations. Persons with a subjective right have the power to require those who act against that right to take certain actions. The existence of subjective rights becomes impossible when the law does not specify the possibility of any other act. The existing civil legislation provides for the protection of interests and interests not expressed in subjective rights. Legislation defining the protection of interests and interests also encompasses the protection of the interests of individuals and legal entities, not only those covered by subjective rights, but also those covered by these rights.

**Keywords:** subjective law; civil-law protection; interest; civil law; public relations; legal interest.

### References

1. Allahverdiyev S.S. *Azerbaycan Respublikasinin mulki huquq kursu* I cild (II neshr) [Civil Law course of Azerbaijan Republic. Vol. I (2nd edition)]. Baku, Digesta Publ., 2008, 944 p.

2. *Azerbaycan Respublikasinin Konstitusiyasi* [The Constitution of the Republic of Azerbaijan]. Baku, Huquq Publ., 2016, 92 p.

3. *Azerbaycan Respublikasinin Mulki Mecellesi* [The Civil Code of the Azerbaijan Republic]. Baku, Huquq edebiyyati Publ., 2012, 776 p.

4. *Azerbaycan Respublikasinin Mulki-Prosessual Mecellesi* [Civil Procedure Code of the Republic of Azerbaijan]. Available at: / http://www.e-qanun.az/code/9 (Accessed: 18.10.2019).

5. Asadov B.H. *Subyektiv huquqlarada ahate olunmayan maraqlar ve onlarin mehkemelerde mudafiasi* [Non-subjective interests and their protection in courts]. Available at: http://supremecourt.gov.az/static/view/115 (Accessed 18.10.2019).

6. Rahimov I.M. *Cinayet ve cezanin felsefesi* [The philosophy of crime and punishment]. Baku, Sherq-Qerb Publ., 2014, 320 p.

♦ **Akhundova Konul Arif gizi** – a lawyer of the National Aviation Academy, Azerbaijan. E-mail: k.ahundova@list.ru

7. Andreev Yu.N. *Mekhanizm grazhdansko-pravovoy zaschity* [Civil legal protection mechanism]. Moscow, Norma; Infra-M, 2010 , 464 p.

8. *Grazhdanskoe pravo.* Uchebnik v 4 t. / V.S. Em, N.V. Kozlova, S.M. Korneev i dr. Pod red. E.A. Sukhanova [Civil law. Textbook: in 4 volumes] / V.S. Em, N.V. Kozlova, S.M. Korneev et al.; edited by E.A. Sukhanov. 3rd ed., rev. and add. Moscow, Walters Kluver Publ., 2008, vol. 1, 736 p.

9. *Grazhdanskoe pravo.* Uchebnik: v 3 t. T.1 [Civil law. Textbook: in 3 vol.]. Vol. 1: 6th ed., rev. and add. / ed. by A.P. Sergeev, Yu.K. Tolstoy. Moscow, TC Velby, Prospect Publ., 2005, 776 p.

10. Ioffe O.C. *Razvitie tsivilisticheskoy mysli v SSSR.* Chast' 1. V knige Ioffe O.S. Grazhdanskoe pravo. Izbrannye trudy [The development of civilistic thought in the USSR. Part 1 // In the book: Ioffe OS Civil law. Selected Works]. Moscow, 2000, pp. 285-293.

11. Ioffe O.S. *Sovetskoe grazhdanskoe pravo*. Izbrannye trudy [Soviet civil law // Selected Works]. In 4 vol. V. II. S. Petersburg, Yuridicheskiy tsentr-Press Publ., 2004, 544 p.

12. Ennekzerus L. *Kurs germanskogo grazhdanskogo prava* Tom 1, polutom 1: Vvedenie i obschaya chast' [The course of German civil law. Vol. I, half-volume 1: Introduction and general part / L. Ennekzerus, T. Kipp, M. Wolf; Transl. from the 13th German edition by Prof. K.A. Grave, PhD in Law G.N. Polyanskaya and V.A. Altshuler. Moscow, Inostrannaya literatura Publ., 1949, 432 p.

**Axundova K.A.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.61.33-43**
**UOT 347.12**

## Mülki-hüquqi müdafiə: anlayışı, növləri və obyektləri

**Xülasə**: Hər hansı bir cəmiyyət müəyyən nizam, davranış qaydaları olmadan yaşaya bilməz. Eyni zamanda, heç bir cəmiyyət üzvlərinin, ayrı-ayrı fərdlərinin qanunla və ya digər normativ, dini, əxlaqi və s. əsaslar ilə təminat verilmiş hüquq və mənafelərinin pozulmasından və ya pozulma ehtimalından sığortalı deyildir. Cəmiyyət bu cür mövcud olub, bu cür yaşayır və bu cür də davam edəcəkdir. Lakin sivilizasiyanın inkişaf səviyyəsinə uyğun olaraq pozulan hüquq və mənafelərin məzmununda, onların pozulmasının qarşısını alınması üçün görülən tədbirlərdə və pozulmuş hüquqların müdafiəsi və bərpasının mexanizmlərində dəyişikliklər baş vermişdir. Bu sahədə mühüm yük müvafiq qanunvericiliyin və onu tətbiq edən orqanların, o cümlədən məhkəmələrin üzərinə düşür.

Mülki hüquqi mübahisəni həll edən məhkəmələr bir qayda olaraq iddiaçının subyektiv hüquqa malik olmasını müəyyən etdikdə həmin hüququn müdafiəsini təmin edir. Bu halda məhkəməyə müraciət edən şəxsin marağı özünü pozulmuş və yaxud mübahisələndirilmiş hüquqlarının bərpa olunmasında göstərir. Fiziki və hüquqi şəxslərin subyektiv hüquqları normativ hüquqi aktlarda (obyektiv hüquqda) ifadə olunmaqla, hüquq münasibətlərində səlahiyyətə çevrilir. Subyektiv hüquqa malik olan şəxslər bu hüquqa qarşı vəzifə daşıyan şəxslərdən müəyyən hərəkətləri etməyi tələb etmək səlahiyyətinə malik olur. Qanunvericilikdə bu və ya digər hərəkətlə əlaqədar imkan müəyyən edilmədikdə subyektiv hüquqların mövcudluğu qeyri-mümkün olur. Qüvvədə olan mülki qanunvericilikdə subyektiv hüquqlarda ifadə olunmayan mənafe və maraqların müdafiəsi imkanı öz əksini tapmışdır. Mənafelərin və maraqların qorunmasını təsbit edən qanunvericilik fiziki və hüquqi şəxslərin nəinki subyektiv hüquqlarında ifadə olunan, habelə bu hüquqlarda əhatə olunmayan maraqlarının mühafizəsini də nəzərdə tutur.

**Açar sözlər**: subyektiv hüquq; mülki-hüquqi müdafiə; maraq; mənafe; mülki hüquq; ictimai münasibətlər; qanuni mənafe.

İnsanın deviant, qanuna zidd davranışının kökündə çox səbəblər dayanır və bu mövzu üzrə qədim filosoflardan tutmuş müasir hüquqşünaslar və sosioloqlaradək vahid fikir yoxdur. Bu kompleks müzakirə mövzusu olub, özündə fəlsəfi, hüquqi, dini, sosioloji, antropoloji, psixoloji və s. yanaşmaları birləşdirir. Məsələn, vaxtı ilə qədim yunan filofofu Platon insanın qanunazidd davranışının səbəbini onun öz təbiətində deyil, dövlətin, cəmiyyətin ictimai təməlində axtarırdı. Platondan fərqli olaraq Aristotel isə deviant davranışın səbəbini sosial şər qüvvələri ilə, ictimai əsaslar ilə əlaqələndirirdi. Antropoloqlar deviant davranışın səbəbini ilk əvvəl fiziki amillər ilə (meteoroloji, geoloji, iqlim və s.) bağlayırdılarsa, sonradan onu daha çox insanın özünün fizioloji və psixoloji quruluşu ilə əlaqələndirmişlər. Bu mövzu ətrafında uzun-uzadı müzakirə açmaq olar, lakin məqaləmizin birbaşa predmeti olmadığından, onun üzərində çox qalmağa ehtiyac duymuruq.

♦ **Axundova Könül Arif qızı** - Milli Aviasiya Akademiyası, hüquqşünas, Azərbaycan. E-mail: k.ahundova@list.ru

Sadəcə, bir şeyi qeyd etmək istəyirik ki, həm insan cəmiyyətinin nizama salınmasının ilk mexanizmlərdən biri olan dini təlimlərdə, həm də cəmiyyətin sonrakı inkişaf mərhələsinin məhsulu olan dövlətlərin normativ sənədlərində insan azad iradəyə, seçim hüququna malik subyekt kimi müəyyən olunmuşdur. Mübarək Avqustinə görə, azad iradə imkanı insanı həm günah əməllər işləməyə təhrik edir, həm də İlahi lütfün köməyi ilə ondan yayınmağa kömək edir. Lakin Allah insanlara şər işləri törətməyi yasaqlamışdır. Yəni, öz əməllərinin yaradıcısı olan insan bu davranışlarına görə məsuliyyət daşıyır. Buna görə də insanın fəaliyyətinin məzmunu Allahın iradəsinə uyğun olub olmamasından asılı olmayaraq, azad irədəli davranış kimi qəbul edilir [6, s. 72, 78, 80].

Beləliklə, cəmiyyət hüquqa zidd, yayınan əməllərdən xali olmadığı üçün imkanları daxilində bunun qarşısını almağa və pozulmuş hüquq və mənafeləri bərpa etməyə yardım edən təsisatlar, o cümlədən hüquqi mexanizmlər müəyyən etmişdir. Bunlardan biri də cəmiyyətdə ictimai münasibətlərin etibarlı hüqiqi tənzimlənməsi mexanizminin yaradılmasıdır. Azərbaycan Respublikasının qanunvericiliyində şəxsiyyətin hüquq və qanuni mənafelərinin bilavasitə və etibarlı müdafiəsini nəzərdə tutan normaların mövcud olduğunu qeyd edə bilərik. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi” adlanan 26-cı maddəsinə əsasən, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. Konstitisiyanın 68-ci maddəsində hər kəsin dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququna malik olması, dövlətin, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıdığı, 71-ci maddəsində Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləməyin və qorumanın qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu olması təsbit olunmuşdur. Azərbaycan Respublikası MM-nin 17-ci maddəsinə əsasən, bütün dövlət hakimiyyəti orqanları, yerli özünüidarə orqanları, siyasi partiyalar, ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları, fiziki və hüquqi şəxslər mülki hüquqlara hörmət bəsləməyə və onların müdafiəsinə kömək göstərməyə borcludurlar. MM-nin 18-ci maddəsinə əsasən isə, mülki hüquqların müdafiəsi qanunvericilikdə nəzərdə tutulmuş qaydada və qanuna, ictimai qaydaya və əxlaqa zidd olmayan üsullarla həyata keçirilir. Eləcə də Azərbaycan Respublikası MPM-nin 2.1-ci maddəsində göstərilir ki, mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin Azərbaycan Respublikasının Konstitusiyasından, qanunlarından və digər normativ hüquqi aktlarından irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır.

Əksər müəlliflər subyektiv hüquqları hüquq münasibətlərindən kənarda mövcud olması ideyasını qəbul etmirlər. Hesab edilir ki, hüquq münasibətləri subyektiv hüquqların əmələ gəlməsinin zəriri formasıdır və hüquq münasibəti olmadıqda subyektiv hüquq da mövcud olmur. Hüquq qabiliyyəti bu münasibətlərin ümumi zəmini, ilkin şərti hesab edilir. Hüquqi faktlar olmazsa, ümumi mücərrəd zəmin rolunu oynayan mülki hüquq qabiliyyəti konkret subyektiv hüquqlar vasitəsi ilə həyata keçə bilməz [10, s. 285-293]. Hüquq elmində demək olar ki, mübahisəsiz qəbul edilir ki, subyektiv hüquq müəyyən qarşılıqlı əlaqəli imkanların sistemindən ibarət olub, müəyyən davranışı etmək və digərindən müəyyən davranışı tələb etmək hüquqlarını əks etdirir. Subyektiv hüquq dedikdə, mövcud hüquq sistem tərəfindən müəyyən mənafeyin təmin edilməsindən ötru

huquq subyektlərinə verilən xüsusi səlahiyyət başa düşülür. Fəlsəfi planda mülki fəaliyyət qabiliyyəti mücərrəd və imkan kateqoriyalanna aid edilirsə, subyektiv hüquq konkret və gerçəklik kateqoriyalarına şamil olunur. Mücərrədin konkretə, imkanın gerçəkliyə çevrilməsi üçün hüquqi fakt (hərəkət, hadisə) gərəkdir. Mücərrədlik özlüyündə eyni zamanda konkret, imkan isə eyni vaxtda gerçəklik ola bilməz. Subyektiv hüquq həmişə konkret hüquq münasibəti ilə bağlı yaranır. Subyektiv hüquqlar və vəzifələr barədə ümumi müddəalar, əsasən, alman sivil doktrinasına əsaslanır. L.Ennekserus subyektiv hüquqa obyektiv hüquqa qarşı qoyulan anlayış kimi baxmış, onu öz məqsədinə görə insan mənafelərinin təmini vasitəsi kimi nəzərdən keşirmişdir. Hüquqi vəzifə isə hərəkət etməyə və ya hərəkət etməkdən çəkinməyə yönəlir [12, s. 239- 251].

Mülki hüquq münasibətinin məzmunu quruluş etibarı ilə iki elementdən ibarətdir: subyektiv mülki hüquq və subyektiv mülki-hüquqi vəzifə. Subyektiv mülki hüquqdan fərqli olaraq, obyektiv mülki hüquq (obyektiv mənada mülki hüquq) mülki hüquq münasibətində iştirak edən konkret subyektin iradəsindən asılı deyildir. Obyektiv mənada mülki hüquq dedikdə, mülki hüquq normalarının məcmusu başa düşülür. Deməli, obyektiv mənada mülki hüquq, müstəqil hüquq sahələrindən biri kimi, mülki hüququn özü deməkdir. O, şəxsən heç kəsə (hər hansı subyektə) məxsus deyildir. Konkret hüquq münasibətləri çərçivəsində onlar bir-birinə uyğun gəlirlər, məsələn, alqı-satqı hüquq münasibətində satıcının əşyanın pulunu almaq kimi subyektiv hüququ alıcının əşyanın pulunu ödəmək kimi subyektiv hüquqi vəzifəsinə, sərnişin daşıma hüquq münasibətində daşıyıcının gediş haqqını almaq və tələb etmək kimi subyektiv hüququ sərnişinin gediş haqqını ödəmək kimi subyektiv vəzifəsinə və s. uyğundur. Əgər mülki hüquq münasibəti subyektlərindən biri (məsələn, satıcı, daşıyıcı, borc verən və s.) subyektiv mülki hüquqa malik olmazsa, onda o biri subyekt (məsələn, alıcı, sərnişin, borc alan və s.) üçün hər hansı bir hüquqi vəzifə əmələ gəlmir. Satıcının əşyanın pulunu almaq hüququ yoxdursa, onda alıcının üzərinə əşyanın pulunu ödəmək vəzifəsi necə qoyula bilər? Subyektiv mülki hüquqsuz subyektiv vəzifə olmadığı kimi, subyektlərindən birinin malik olduğu subyektiv hüquq yalnız o halda məna kəsb edə bilər ki, bu hüquqa uyğun gələn müvafiq vəzifə digər subyektin üzərinə qoyulsun və ona həvalə edilsin. Yəni, cüt kateqoriyalar olan subyektiv mülki hüquq və subyektiv vəzifə bir-biri ilə qırılmaz surətdə bağlı olub, dialektik vəhdət təşkil edir [1, s. 272-273].

Subyektiv hüquq müəyyən hərəkəti etmək hüququ ilə yanaşı, müəyyən tələb hüququnu da nəzərdə tutur. Tələb hüququ bir halda digər şəxsdən müəyyən hərəkətin edilməsini, digər halda isə başqasının hərəkətinin nəticəsinin tələb edilməsi hüququnu özündə birləşdirir. Lakin bu zaman aşağıdakıları nəzərə almaq lazımdır. Kreditor borcludan öhdəliklərin icrasını, onun icra müddəti başlanmamışdan əvvəl tələb etmək hüququna malik deyildir. Kreditorda öhdəlik hüququnun yaranmasından sonra tələbin ödənilməsi cəhdi dərhal da aradan qalxa bilər, lakin bu tələb hüququnun avtomatik olaraq dəyişməsinə və xitamına gətirib çıxarmır. Məsələn, alqı-satqı müqaviləsindən sonra alıcının əldə etdiyi əşyaya marağı dərhal itə və onu şəxsi üçün istifadə etmədən ata bilər. Lakin o, bu halda da əldə etmiş olduğu həmin əmlakın mülkiyyətçisi və onu mənimsəmiş şəxs statutunda sayılır.

Mülki hüquqların müdafiəsi kompleks və sahələrarası xarakterə malikdir. Mülki hüquqların müdafiəsi aşağıdakı üç fərqli mənanı ifadə edir: 1) müdafiə - müvəkkil (maraqlı) şəxsin fəaliyyəti kimi; 2) müdafiə - həm müvəkkil (maraqlı) şəxsin, həm də hüquqtətbiqetmə orqanının fəaliyyəti kimi; 3) müdafiə - hüquqtətbiqetmə orqanının fəaliyyəti kimi. Ədəbiyyatda düzgün olaraq göstərilmişdir ki, subyektiv mülki hüquqların müdafiəsi özünə həm maddi, həm də prosessual hüququn elementlərini daxil etdiyindən, mülki hüquqların müdafiəsi də həm maddi, həm də

prosessual mənanı kəsb edir [7]. Lakin "ümumi hüquqi müdafiə" və "mülki-hüquqi müdafiə" anlayışlarının bir-biri ilə tam şəkildə eyniləşdirilməsi düzgün deyildir. Ümumi hüquqi müdafiə hüquqtətbiqetmə fəaliyyətinə aid olmaqla, dövlət orqanları və ya dövlətin müvəkkil etdiyi orqanlar tərəfindən həyata keçirilir.

Mülki-hüquqi müdafiə hüququna müxtəlif aspektlərdən yanaşmaq olar. Lakin bu barədə əsas iki cür yanaşma mövcuddir. Bir mövqeyə görə, müdafiə hüququ subyektiv mülki hüququn məzmununa daxil olan elementlərdən, yəni hüquqi imkanlardan biridir. Subyektiv mülki hüquq pozulduqda dövlət məcburetmə tədbirlərindən istifadə olunmasını tələb etmək imkanı yaranır. Digər mövqeyə görə, müdafiə hüququnun özü müstəqil subyektiv hüquq olsa da, yalnız mülki hüquqların pozulduğu və ya mübahisələndirildiyi anlarda müstəqil subyektiv hüquq kimi çıxış edir. Belə hallarda mühafizəedici xarakterli mülki hüquq münasibəti yaranır və müdafiə hüququ bu münasibət çərçivəsində həyata keçirilir [8, s. 281].

Bəzən müdafiə hüququ qoruyucu funksiya kimi tədqim edilir. Hər bir müdafiə tədbirinin öz məqsədi, predmeti və arzuolunan nəticəsi olur. Əgər bu və ya digər müdafiə tədbiri müəyyən vəziyyətin möhkəmləndirilməsinə, bərpasına, maneələrin aradan qaldırılmasına səbəb olmursa, deməli, o, məqsədsiz olur. Təcrübədə bəzən elə hallara təsadüf olunur ki, mübahisə üzrə məhkəməyə müraciət edən şəxsin subyektiv maddi hüququnun və yaxud marağının olmamasına əvvəlcədən hüquqi qiymət verilməklə, iddia ərizəsinin icraata qəbul edilməsindən imtina edilir. Məsələn, A. məhkəməyə müraciət edib bildirir ki, ana tərəfdən babasının mirası oğul və qızları arasında bölüşdürülmüş, ona pay ayrılmamışdır. İddia ərizəsi ilə tanış olan hakim müəyyən edir ki, A-nın vərəsə olan anası sağ olduğu üçün o, babasının vərəsəliyinə çağrıla bilməz. Bu halda hakim A-nın vərəsəlik hüququnun olmamasını, güddüyü marağın əsassızlığını bilsə də, iddia ərizəsini qəbul etməkdən imtina etməməlidir. Yadda saxlamaq lazımdır ki, hər bir qaldırılmış iddia əsası olub-olmamasından asılı olmayaraq, icraata qəbul edilməli, iddia tələblərinə yalnız məhkəmə iclasında məhkəmə aktı ilə hüquqi qiymət verilməlidir. Qanunun bu tələbi ondan irəli gəlir ki, subyektiv hüquqlar obyektiv xarakter daşısa da, onun daşıyıcıları olan şəxslər tərəfindən yanlış anlaşıla bilər. Məhkəmə öz qətnaməsi ilə ona müraciət edən şəxsin maraqları barədə yanlış təsəvvürdə olmasını təsdiq edir. Bundan sonra həmin şəxsin iddia ilə məhkəməyə təkrar müraciət etməyə marağı itir [5].

Subyektiv mülki hüquq kimi müdafiə hüququ dedikdə, pozulmuş hüquqların (mənafelərin) bərpası və ya mübahisə edilən hüquqların tanınması üzrə səlahiyyətli şəxsin mümkün olan davranış ölçüsü başa düşülür. Müdafiə hüququnun məzmunu dedikdə, səlahiyyətli şəxsə verilən imkan başa düşülür [1, s. 850]. Səlahiyyətli şəxsin həm əşya, həm də öhdəlik hüquqları müdafiə oluna bilər. Mülkiyyətçiyə ona məxsus olan əşyadan istifadə etməyə maneçilik törədildikdə, mülkiyyət (əşya) hüququ müdafiənin predmetinə çevrilir. Öhdəlik hüquq münasibətləri pozulduqda öhdəlik hüquqları müdafiənin predmetini təşkil edir. Mübahisələndirilən hüquqlar da mülki-hüquqi müdafiənin predmeti ola bilər.

Müdafiənin predmeti həm də səlahiyyətli şəxsin qanunla qorunan mənafeyi ola bilər. Qanunvericilik aktlarında və nəzəri ədəbiyyatlarda "mənafe" ilə yanaşı, "maraq" ifadəsindən istifadə olunur. "Mənafe" və "maraq" ifadələri müxtəlif elm sahələrində onların predmetlərinə, metodlarına və tədqiqat prinsiplərinə uyğun olaraq izah edilir. Məsələn, fəlsəfədə "mənafe" və "maraq" cəmiyyətin, onun müəyyən qruplarının və ayrı-ayrı fərdlərin öz həyat şəraitlərinə, zəruri tələbatlarına obyektiv münasibətlərini və onlara sərfəli olan şəraitin saxlanılmasına cəhd etmələrini ifadə edir. Psixologiyada "mənafe" və "maraq" ifadələri insanların müəyyən həyat ehtiyaclarının

ödənilməsinə yönələn iradə ifadəsi kimi şərh edilir. İqtisadçılar "mənafe" və "marağ"ın izahını ictimai istehsal sistemində insanların yerini müəyyən edən fəaliyyət motivlərində axtarırlar. Qanunvericilik aktlarında bir qayda olaraq fiziki və hüquqi şəxslərin hər cür mənafe və maraqlarının müdafiəsindən deyil, qanunlardan və digər normativ-hüquqi aktlardan irəli gələn, başqa sözlə, qanunla qorunan mənafe və maraqlarından bəhs olunur. Bu müddəalara əsaslanaraq hüquqi baxımdan mənafe və maraqları iki qrupa bölmək olar: subyektiv hüquqlarda əhatə olunan mənafe və maraqlar; subyektiv hüquqlardan kənar mövcud olan mənafe və maraqlar. Mülki-hüquqi mahiyyət kəsb edən mənafe və maraqları iki qrupa bölmək olar: əmlak maraqları və qeyri-əmlak maraqları. Təbiidir ki, əmlak maraqları iqtisadi vasitələrlə, şəxsi qeyri-əmlak maraqları isə həm də mənəvi vasitələrlə təmin olunur. Həm əmlak, həm də şəxsi qeyri-əmlak maraqları hüquqi mənafedə ifadə oluna bilər. Hüquq ədəbiyyatında "ictimai maraq", "dövlət marağı", "kollektiv maraq" və "xidmət marağı" ifadələrinə də təsadüf olunur. Bu hallarda işə baxan məhkəmələr mübahisəli münasibətlərə obyektiv qiymət vermək üçün, onlar prosesin iştirakçıları olmasalar da, müvafiq dövlət və ictimai orqanları, habelə kollektivin nümayəndəsini işə cəlb edib onların rəyini öyrənmişdir. Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən məhkəmələrə göndərilən məktubda tövsiyə edilmişdir ki, dövlət hesabından pul tutulması ilə əlaqədar olan iddialar üzrə işlərə baxıldıqda Azərbaycan Respublikası Maliyyə Nazirliyi və yaxud onun yerli orqanları işə cəlb edilməli, reqres iddia qaldırmaq imkanları olduqda onlara bu hüquqları izah edilməlidir [5].

Qanuni mənafe iki halda müdafiənin müstəqil predmeti qismində çıxış edir:

1) hüquq pozuntusu nəticəsində subyektiv mülki nüququn xitam edilməsi. Belə ki, xitam olunmuş subyektiv mülki hüququn müdafiəsi qeyri-mümkün olduğundan, bu halda qanunla qorunan mənafe müdafiə edilir (məsələn, vətəndaş öz qonşusuna əvəzsiz istifadə müqaviləsi ilə elektrik çaydanını verir, lakin qonşunun təqsiri üzündən həmin əşya yanır. Əşyanın qaytarılması mümkün olmadığından, əşyanın mülkiyyətçisi ona dəymiş zərərin əvəzinin ödənilməsi üçün qonşuya tələb irəli sürur. Belə halda subyektiv mülki hüquq yox, qanunla qorunan mənafe müdafiənin predmeti qismində çıxış edir);

2) subyektin subyektiv hüquqların vasitəsilə ifadə edilməyən mənafeyə malik olması. Subyektiv hüququn müdafiəsi eyni zamanda qanunla qorunan mənafeyin müdafiəsini şərtləndirir və onu ifadə edir. Yəni, hər bir subyektiv hüququn əsasında bu və ya digər mənafe durur. Məhz bu mənafeyi təmin etmək üçün səlahiyyətli şəxsə subyektiv hüquq verilir. Buna görə də subyektiv mülki hüquq və qanunla qorunan mənafe anlayışları bir-birinə çox yaxın olub, çox vaxt üst-üstə düşürlər. Amma elə mənafelər var ki, onlar subyektiv hüquqların vasitəsilə ifadə olunmur və müstəqil mövcud olur. Bu mənafelər pozulduqda onlar müdafiənin müstəqil predmeti kimi çıxış edir (məsələn, şərəf və ləyaqətin pozulduğu, əqdlərin etibarsız sayıldığı və s. hallarda qanunla qorunan mənafe müdafiənin müstəqil predmetinə çevrilir).

Beləliklə, mülki-hüquqi müdafiə üçün aşağıdakı əlamətlər xarakterikdir:

1) bu, ya dövlətin köməyi olmadan (özünü müdafiə və operativ təsir zamanı, öhdəliyin könüllü icrası zamanı və s.), ya da dövlətin məcburetmə qüvvəsi vasitəsi ilə (pozulmuş tənzimləyici hüququn məzmununa daxil olan mühafizəedici səlahiyyətin realizəsi zamanı və s.) həyata keçirilən xüsusi hüquqi müdafiənin növlərindən biridir,

2) bu müdafiə həmişə müdafiə olunanın təşəbbüsü ilə həyata keçirilir;

3) bu, nəticəsi hüququn pozulmasının qarşısının almaqdan və ya pozulmuş hüququn bərpasından ibarət olan predmetli fəaliyyətdir. Deməli, subyektiv mülki hüququn pozulması və ya

onun mübahisələndirilməsi olmadan, mülki-hüquqi müdafiənin bir hadisə kimi mövcudluğundan danışmaq ağlasığmazdır;

4) bu, müvəkkil (maraqlı) şəxs tərəfindən müdafiə imkanlarının (səlahiyyətin) realizəsində ifadə olunan fəaliyyətdir. Səlahiyyətli şəxsin borclu şəxsdən müəyyən davranışı tələb etmək hüququ o halda təzahür edir ki, o, dövlət orqanlarına və ya müvəkkil orqanlara müraciət edərək, borclu şəxsi müəyyən davranışa məcbur etmək imkanına malik olur.

Ədəbiyyatlarda "mülki-hüquqi mühafizə" terminindən də istifadə olunur. Vaxtı ilə sovet mülki hüquq ədəbiyyatında göstərilmişdir ki, mülkiyyətin mülki-hüquqi mühafizəsi tətbiqi sosialist cəmiyyətinin iqtisadi münasibətlərinin normal inkişafını təmin edilməsinə yönələn bütün mülki hüquq normaları vasitəsi ilə həyata keçirilir və bu münasibətlərə qəsd edən hüquq pozuntuları ilə əlaqədar tətbiq edilən üsul və vasitələrin məcmuyunu özündə əks etdirir [11, s. 492]. Göründüyü kimi, mülki-hüquqi mühafizə mülki hüququn nizamlayıcı mahiyyətini ifadə edən funksiyaları ilə bağlıdır. Odur ki, mülki hüquqi mühafizə daha çox mülki hüquqi tənzimlənmənin elementi kimi nəzərdən keçirilir.

Mülki-hüquqi müdafiə ilə mülki hüquqi mühafizə anlayışlarının bir-birindən aşagıdakı əlsamətlər üzrə fərqləndirilməsi mümkündür:

1) Obyekt üzrə. Mülki-hüquqi mühafizənin obyekti qismində mülki hüququn predmetini təşkil edən ictimai münasiətlər çıxış edirsə, mülki hüquqi müdafiənin obyekti qismində subyektiv mülki hüquq və ya qanunla qorunan mənafe çıxış edir; Azərbaycan Respublikası Mülki Məcəlləsinin 4-cü maddəsində təsbit olunmuş əmlak və ya qeyri-əmlak dəyəri olan, qanunvericiliklə mülki dövriyyədən çıxarılmamış maddi və ya qeyri-maddi nemətlərin mülki hüquq münasibətlərinin obyektləri ola bilməsinə dair müddəa da bu mövqeyi dəstəklənməsinə kömək edir;

2) subyekt üzrə. Mülki-hüquqi mühafizənin subyekti qismində dövlət, mülki hüquqi müdafiənin subyekti qismində isə müvəkkil və ya maraqlı şəxslər çıxış edir;

3) məzmun üzrə. Mülki-hüquqi mühafizənin məzmunu ictimai münasibətlərin məqsədyönlü şəkildə qaydaya salınması, yəni mülki-hüquqi tənzimlənmə ilə, mülki hüquqi müdafiənin məzmunu isə mühafizə olunan səlahiyyətin və ya hüququn realizəsi ilə bağlıdır.

Nəzəri və təcrübi məqsəd ilə müəyyən meyarlardan (mülki-hüquqi müdafiənin forması; mülki-hüquqi müdafiənin obyekti; mülki-hüquqi müdafiənin məzmunu) istifadə etməklə mülki-hüquqi müdafiənin növlərini də ayırmaq olar. Yuridik olmayan mülki-hüquqi müdafiə və yuridik olan mülki-hüquqi müdafiə. İkinci birinci ilə müqayisədə ümumi hüquqi müdafiə ilə bağlıdır. Obyektə görə mülki-hüquqi müdafiənin pozulan və ya mübahisələndirilən subyektiv hüquqlar və pozulan və ya mübahisələndirilən qanunla qorunan mənafelər fərqləndirilir. Üçüncü meyar üzrə isə tənzimləyici və mühafizə olunan hüquq münasibətlərinin mülki-hüquqi müdafiəsini ayırmaq olar.

Qeyd edilən əlamətləri ümumiləşdirməklə, mülki-hüquqi müdafiənin aşağıdakı anlayışını vermək mümkündür. Mülki-hüquqi müdafiə müvəkkil (maraqlı) şəxsin müstəqil surətdə və ya dövlətin köməyi ilə özünə məxsus hüquqi imkanların – mühafizəedici səlahiyyətin realizəsi üzrə həyata keçirdiyi, nəticəsi subyektiv hüququn (qanuni mənafeyin) pozulmasının qarşısını almaqdan və ya pozulmuş subyektiv hüququ (qanuni mənafeyi) bərpa etməkdən ibarət olan təşəbbüskar fəaliyyətdir.

**Biblioqrafiya**

1. Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. I cild. (II nəşr). Bakı, Digesta nəşriyyatı, 2008. - 944 s.

2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayın Evi, 2016. - 92 s.

3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, Hüquq ədəbiyyatı nəşriyyatı, 2012. - 776 s.

4. Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi [Elektron mənbə]. URL: http://www.e-qanun.az/code/9 (müraciət tarixi: 18.10.2019).

5. Əsədov B.H. Subyektiv hüquqlarda əhatə olunmayan maraqlar və onlarin məhkəmələrdə müdafiəsi [Elektron mənbə]. URL: http://supremecourt.gov.az/ static/view/115 (müraciət tarixi: 18.10.2019).

6. Rəhimov İ.M. Cinayət və cəzanın fəlsəfəsi. Bakı, Şərq-Qərb Nəşriyyat evi, 2014. - 320 s.

7. Андреев Ю.Н. Механизм гражданско-правовой защиты. - М.: Норма; Инфра-М, 2010. - 464 с.

8. Гражданское право. Учебник: в 4 т. / B.C. Ем, Н.В. Козлова, С.М. Корнеев и др.; под ред. Е.А. Суханова. 3-е изд., перераб. и доп. - М.: Волтерс Клувер, 2008. Т. 1. - 736 с.

9. Гражданское право. Учебник: в 3 т. Том 1: 6-е изд., перераб. и доп. / под ред. Сергеева А.П., Толстого Ю.К. - М.: ТК Велби, Изд-во Проспект, 2005. - 776 с.

10. Иоффе О.С. Развитие цивилистической мысли в СССР. Часть 1 // В книге: Иоффе О.С. Гражданское право. Избран. труды. - М.: 2000. - С. 285-293.

11. Иоффе О.С. Советское гражданское право // Избран. труды в 4 т. Т. II. - СПб.: Юридический центр-Пресс, 2004. - 544 с.

12. Эннекцерус Л. Курс германского гражданского права. Том I, полутом 1: Введение и общая часть / Л.Эннекцерус, Т.Кипп, М.Вольф; пер. с 13-го немец. изд. проф. К.А.Граве, к.ю.н. Г.Н. Полянской и В.А.Альтшулера. - М.: Изд-во Иностранная литература, 1949. - 432 с.

**Ахундова К.А.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.61.33-43**
**УДК 347.12**

## Гражданско-правовая защита: понятие, виды и объекты

**Аннотация**: Ни одно общество не может жить без определенных правил поведения. В то же время ни одно общество не застраховано от любого нарушения или вероятности нарушения прав и интересов, гарантированными религиозными, моральными или иными законными основаниями со стороны своих отдельных членов. Вот как общество существует и живет, так и будет продолжать. Однако, в соответствии с уровнем развития цивилизации произошли изменения в содержании нарушенных прав и интересов, мерах, принятых для предотвращения их нарушения, а также в механизмах защиты и восстановления нарушенных прав. Важное бремя в этой области лежит на соответствующем законодательстве и на исполнительных органах, в том числе на судах.

Суды, которые разрешают гражданско-правовой спор, обычно обеспечивают защиту этого права, когда определяется, что истец имеет субъективное право. В этом случае интерес заявителя заключается в восстановлении его нарушенных или оспариваемых прав. Субъективные права физических и юридических лиц выражаются в правовых актах (объективное право) и становятся полномочиями в правоотношениях. Лица с субъективным правом имеют право требовать определенные действия от тех лиц, кто действует против этого права. Существование субъективных прав становится невозможным если в законе не указана возможность какого-либо иного действия. Действующее гражданское законодательство предусматривает защиту интересов, не выраженных в субъективных правах. Законодательство, определяющее защиту интересов также охватывает защиту интересов физических и юридических лиц, причем не только тех, которые охвачены субъективными правами, но и тех, которые не охвачены этими правами.

**Ключевые слова**: субъективное право; гражданско-правовая защита; интерес; гражданское право; общественные отношения; законный интерес.

## Библиография

1. Аллахвердиев С.С. Курс Гражданского права Азербайджанской Республики. I том (2-е изд.). Баку, Дигеста, 2008. - 944 с. (на азерб. яз.).
2. Конституция Азербайджанской Республики. Баку, Изд-во Дом Права, 2016. – 92 с. (на азерб. яз.).
3. Гражданский Кодекс Азербайджанской Республики. Баку, Изд-во Юридическая литература, 2012. - 776 с. (на азерб. яз.).
4. Гражданско-процессуальный кодекс Азербайджанской Республики [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/code/9 (дата обращения: 18.10.2019).

♦ **Ахундова Кёнуль Ариф кызы** – юрист, Национальная академия авиации, Азербайджан. E-mail: k.ahundova@list.ru

5. Асадов Б.Х. Интересы, не охваченные субъективными правами, и их судебная защита [Электронный ресурс]. Режим доступа: http://supremecourt.gov.az/static/view/115 (дата обращения: 18.10.2019).

6. Рагимов И.М. Философия преступления и наказания. Баку, Изд-во Шярг-Гярб, 2014. - 320 с.

7. Андреев Ю.Н. Механизм гражданско-правовой защиты. - М.: Норма; Инфра-М, 2010. - 464 с.

8. Гражданское право. Учебник: в 4 т. / В.С. Ем, Н.В. Козлова, С.М. Корнеев и др.; под ред. Е.А. Суханова. 3-е изд., перераб. и доп. - М.: Волтерс Клувер, 2008. Т. 1. - 736 с.

9. Гражданское право. Учебник: в 3 т. Том 1: 6-е изд., перераб. и доп. / под ред. Сергеева А.П., Толстого Ю.К. - М.: ТК Велби, Изд-во Проспект, 2005. - 776 с.

10. Иоффе О.С. Развитие цивилистической мысли в СССР. Часть 1 // В книге: Иоффе О.С. Гражданское право. Избранные труды. - М.: 2000. - С. 285-293.

11. Иоффе О.С. Советское гражданское право // Избранные труды. В 4 т. Т. II. - СПб.: Юридический центр-Пресс, 2004. - 544 с.

12. Эннекцерус Л. Курс германского гражданского права. Том I, полутом 1: Введение и общая часть / Л. Эннекцерус, Т. Кипп, М.Вольф; пер. с 13-го немец. изд. проф. К.А.Граве, к.ю.н. Г.Н. Полянской и В.А. Альтшулера. - М.: Изд-во Иностранная литература, 1949. - 432 с.